***Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.***

# "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iqtisadiyyatın inkişafına mühüm töhfə verəcək

Nəqliyyat sektorunun bütün sahələrində xidmət infrastrukturları modernləşdirilib, yol təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr həyata keçirilib, çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub. "Şimal-Cənub" kimi iri nəqliyyat dəhlizinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihəsi gerçəkləşdirilib.

Azərbaycanın tərəfdaşları tərəfindən ötən müddətdə bu nəqliyyat dəhlizindən səmərəli istifadə edilib. Respublikamızın ərazisindən keçən yolların çoxşaxəli olması ölkəmizin imkanlarını böyük dərəcədə artırıb. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşınan yüklərin həcmi təxminən, 20 faiz yüksəlib.

Prezident İlham Əliyev İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində Azərbaycanın həyata keçirdiyi infrastruktur layihələrindən danışarkən, ölkəmizin Xəzər dənizi sahilində ən böyük ticarət limanı inşa etdiyini, hazırda həmin limanın tam gücü ilə fəaliyyət göstərdiyini və yaxın gələcəkdə onun genişləndiriləcəyinin nəzərdə tutulduğunu vurğulayıb. Dövlət başçısı daha sonra deyib: "Ticarət limanı 25 milyon ton yük və 1 milyon konteyner qəbul etmək imkanına malik olmalıdır. Biz Bakıda gəmiqayırma zavodu inşa etmişik. Biz Xəzər dənizinin şərq sahillərindən neft və digər yük daşıyan hər növ gəmilər inşa edə bilirik. Biz dəmir və avtomobil yolları tikmişik. Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycan vasitəsilə ixrac artmaqdadır və zənnimcə, artım 20 faiz səviyyəsindədir".

Bütün bu işlərin Rusiya-Ukrayna müharibəsindən əvvəl görüldüyünü bildirən ölkə rəhbəri sözügedən savaşın Xəzərin şərq sahilindəki şirkətlər üçün bir siqnal olduğunu, bu marşrutun daha da yaxından nəzərdən keçirilməsinin zəruriliyini xatırladıb. Azərbaycan lideri respublikamızın əlverişli tariflər təklif etdiyini və bütün zəruri logistika dəstəyi göstərdiyini də diqqətə çatdırıb: "Yəni, açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan bu gün regional nəqliyyat mərkəzinə çevrilir - təkcə Şərqdən Cənuba və geriyə deyil, həmçinin Şimaldan Cənuba. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Azərbaycandan keçir və başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən onlar Avropa məntəqələrinə yük daşıya bilmir".

Prezident İlham Əliyev daha sonra vurğulayıb ki, iki regional nəqliyyat dəhlizi üzərində yerləşməsi Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və yeni iş yerlərinin yaradılmasına imkan verir. Dövlət başçısı müsahibədə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin "Şərq-Qərb" dəhlizi qədər vacib olacağı qənaətini də diqqətə çatdırır. "Bizim üçün onlar bərabər dərəcədə əhəmiyyətlidir. Çünki hər iki dəhliz bizim ərazimizdən keçir",-deyə ölkə rəhbəri bildirir.

Yeri gəlmişkən, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi 2000-ci ildə Sankt-Peterburqda imzalanmış "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Hökumətlərarası Sazişlə yaradılıb.

***(ardı 3-cü səhifədə)***

# "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iqtisadiyyatın inkişafına mühüm töhfə verəcək

*(əvvəli 1-ci səhifədə)*

Sentyabrın 9-da Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya Federasiyası Baş nazirinin müavini Aleksandr Novak və İran İslam Respublikasının yol və şəhərsalma naziri Rüstəm Qasimi arasında keçirilən üçtərəfli görüşdə də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialı və perspektivləri haqqında ətraflı müzakirələr aparılıb. Tədbirdə Azərbaycan, İran və Rusiyanın yüksək intermodal tranzit potensialından tam həcmdə istifadənin və bu xüsusda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi məqsədilə əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi qeyd edilib.

Görüşün yekunu olaraq tərəflər arasında Bakı Bəyannaməsi imzalanıb. Bəyannamədə tərəflərin dəhlizdən tam potensialı ilə istifadə etmək üçün infrastrukturun və nəqliyyat imkanlarının qiymətləndirilməsi və təhlili sahəsində əməkdaşlığa hazır olduqları bildirilib, həmçinin 2030-cu ilə qədər tərəflərin əraziləri arasında 30 milyon ton tranzit və ikitərəfli yüklərin təklif olunan hədəfləri nəzərə alınıb. Görüşdə tərəflərin dəhlizin inkişafı kontekstində öz əraziləri vasitəsilə nəqliyyat və tranzit əməliyyatlarının və prosedurlarının asanlaşdırılması məsələləri ilə məşğul olmaq üçün Birgə İşçi Qrupun yaradılması təşəbbüsünün əhəmiyyəti və bir ay ərzində həmin İşçi Qrupun ilk iclasını keçirmək niyyətləri vurğulanıb.

Bundan əlavə, tədbirdə tərəflərin bir ay ərzində Rəşt-Astara dəmir yolu layihəsi üzrə saziş layihəsinin hazırlanması və 2022-ci ilin sonunadək danışıqlara başlamaq niyyətində olduqları bildirilib.

Qeyd edək ki, "Şimal-Cənub" nəqliyyat dəhlizi bütün region dövlətləri, o cümlədən qonşu İran üçün də mühüm önəm daşıyır. İranın Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Nasir Kənani Tehranda keçirdiyi ənənəvi həftəlik mətbuat konfransında bu barədə danışaraq, hər iki ölkənin – Azərbaycan və İranın beynəlxalq əhəmiyyətə malik iri iqtisadi layihələrdə iştirak etdiyini vurğulayıb. O, bu layihələrdən birinin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi olduğunu qeyd edib. Nasir Kənani adı çəkilən dəhlizin Avropa ilə Asiya qitələrini nəqliyyat baxımından birləşdirəcəyini, layihədə iştirak edən ölkələrin ticarət əlaqələrini və tranzit imkanlarını artıracağını bildirib.

İranın XİN-in rəsmi nümayəndəsinin sözlərinə görə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil olan Rəşt-Astara dəmir yolu həm Rusiya, həm Azərbaycan, həm də İran üçün çox əhəmiyyətlidir.

Nasir Kənani daha sonra diqqətə çatdırıb ki, İran qonşu ölkələrlə, xüsusilə də Azərbaycan Respublikası ilə əlaqələrin inkişafını xarici siyasətinin prioritet istiqaməti hesab edir. İran regionda sülhün və əmin-amanlığın davamlı olmasında maraqlıdır və bu istiqamətdə addımlar atır.

Qeyd edək ki, Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin davamı olan Rəşt-Astara xətti İran, Azərbaycan və Rusiyanın dəmir yolu sistemlərini birləşdirəcək. Avropa və Rusiyadan Hindistana və digər Cənub Şərqi Asiya ölkələrinə yüklər məhz bu yolla daşınacaq.

Yüklərin əks istiqamətə də bu yolla daşınması neft ixracatçısı olan Rusiya, İran və Azərbaycanın qeyri-neft sektorunun inkişafına təkan verəcək, bu ölkələr logistika mərkəzinə çevriləcək və büdcəyə əlavə valyuta axını təmin olunacaq.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edəcək Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti beynəlxalq əhəmiyyət daşıyır. Bu yolun tikintisi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsində iştirak edən bütün dövlətlər üçün əhəmiyyətlidir.

Rəşt-Astara yolu hazır olduqdan sonra Avropa ilə Asiya arasında geniş nəqliyyat dəhlizi yaranacaq. Bu da iki qitənin ticarət əlaqələrini və tranzit imkanlarını artıracaq. Yüklər Rusiyadan dəmir yolu ilə Azərbaycan ərazisindən keçməklə Rəşt-Astara dəmir yolu ilə İrana çatdırılacaq. Buradan isə Fars körfəzi və Cənub Şərqi Asiya ölkələrinə daşınacaq. Yüklərin əks istiqamətə də bu yolla daşınması İran və Azərbaycanı logistika və tranzit mərkəzinə çevirəcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun "Yaşma bağları" yaşayış məntəqəsindən başlayaraq tikintisi davam etdirilir.

Magistralın Xızı rayonunun Yaşma və Giləzi qəsəbələri arasında yerləşən 30 kilometrlik 1-ci hissəsi üzrə tikinti işləri sona çatdırılıb.

Magistral yolda hərəkətdə olan sürücü və sərnişinlərin təhlükəsizliyi baxımından yola hər hansı maneənin çıxmasının qarşısını almaq məqsədilə yolun hər iki tərəfdən çəpərlənməsi, ödəniş sisteminin hazırlanması, turniket, kameralar və server sisteminin quraşdırılması işləri də davam etdirilir.

Ümumilikdə isə yeni inşa edilən 150 kilometrlik magistral yolboyu 55 yol ötürücüsü və körpü, 44 yolaltı keçid və 509 müxtəlif diametrlərdə dairəvi və düzbucaqlı suötürücü borunun inşası nəzərdə tutulur.

2023-cü ilin əvvəlinədək tikintisinin yekunlaşdırılması planlaşdırılan yeni magistral avtomobil yolu nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, bir çox sosial problemlərin həllinə şərait yaradacaq.

"Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mərkəzində yerləşən Azərbaycan hazırda regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilir. Hazırda respublika ərazisində müxtəlif dəhlizlər üzrə yükdaşımalarda artım müşahidə edilir. Cari ilin səkkiz ayında nəqliyyat dəhlizlər üzrə tranzit daşımaların həcmi 47 faizdən çox artması da bunun bariz ifadəsidir.

Qeyd edək ki, son dövrlərdə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli tədbirlər həyata keçirilir, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır. Bu baxımdan, dövlətimizin başçısının Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir.

Daşınma həcmlərinin artması ilə bağlı hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ikinci mərhələsinin layihələndirmə işləri aparılır. Limanın ikinci mərhələsi yekunlaşdıqdan sonra yükaşırma imkanlarının 25 milyon tona çatdırılacağı gözlənilir.

Onu da xatırladaq ki, yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz elə buna görə də Azərbaycan Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edən "Ələt Azad İqtisadi Zonası haqqında" 18 may 2018-ci il tarixli Qanun imzalayıb.

Ekspertlərin sözlərinə görə, Ələt Azad İqtisadi Zonası daha çox nəqliyyat, logistika xidmətlərinin formalaşmasında mühüm rol oynayır. İnvestisiyaların cəlb olunması burada əsas hədəf olaraq nəzərdə tutulur. Belə bir iqtisadi zonanın yaradılması isə Azərbaycana tranzit ölkə olaraq öz imkanlarını genişləndirməyi şərtləndirir və ölkə ərazisinə daha çox yükdaşımaların artırılmasına əsaslı təsir göstərir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 11 sentyabr.- S.1;3.